*Tanış olun, həmyerlimizdir*

# Bacarıqlı həkim, gözəl insan

Əsl insanın portretini yaratmaq, onun varlığını, enişli-yoxuşlu həyatının yaddaqalan məqamlarını dərindən açıb göstərmək, təqdim etmək və tanıtmaq olduqca məsuliyyətli bir işdir. İnsan dünyaya gəlir, böyüyüb boya-başa çatır, təhsil alır, ailə qurur, məqsəd və məramları uğrunda mübarizə aparır, özünün nəyə qadir olduğunu sübuta yetirmək istəy ir. Beləcə bu dünyaya milyonlarla insan gəlir, sonra öz missiyasını başa vurur, bir müddət əzizlərinin, yaxınlarının yaddaşında yaşayır.

Bacarıqlı həkim Yusif Mustafayev haqqında bir müddət sözünü dilə gətirmək mənim üçün çətindir. 20 ildən çoxdur bir-birimizi tanıyır, onun həyat fəaliyyətini izləyirəm.

Çalışdığı sahədə bütün vəzifə pillələrini adlayıb, Çox cavankən Mingəçevir şəhər səhiyyə şöbəsinə rəhbərlik edib.

1960-cı ilin avqust ayının 1-dən Mingəçevir şəhərində həkim kimi fəaliyyətə başlayıb.

Yusif həkimi tanıdan və şöhrətləndirən onun Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə qurtarması, mükəmməl ixtisasa sahib olması, ürəkdən vurulduğu peşəsinə bağlılığıdır.



Yusif həkim xatırlayır. 6 yaşım olanda atam həyatdan köçdü. Biz nə etməli sualına cavab tapmaqda çətinlik çəkmədik. Bunun səbəbi isə rəhmətlik anamın mətin iradəsi oldu. O, bütün sədləri adladı. Çətinliklərin öhdəsindən gəldi, bizi böyüdüb boya-başa çatdırdı. Əlbəttə, Bakıda yaşamağımız olduqca çətin və mümkünsüz bir həddə çatmışdı. Anam, bacım və böyük qardaşımla Qəbələ rayonunun Kiçik Əmili kəndinə qayıtdıq. Birinci sinfə Zalam kəndindəki məktəbə getdim 8-ci sinifdən Hacıalılı kənd tam orta məktəbində oxudum, 1954-cü ildə oranı bitirib Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə profilaktika fakültəsinə qəbul olundum.

Yusif həkim 51 ildir həyatını Mingəçevirlə, onun səhiyyəsi ilə bağlayıb. Həmişə özünə güvənib. Hər bir xəstəni özünün doğması sayıb. Sağaltdığı insanların isə sayı-hesabı yoxdur.

—Uğurlarımın bir səbəbini də bəxtimin gətirməyində görürəm—deyir Yusif həkim.

Məsələn, xoşbəxtəm ki, ümumən respublika səhiyyəsində tanınan, sayılan bir mütəxəssisin--Ağamirzə Heybətov kimi insanın yanında çalışmışam. O, xeyli müddət Mingəçevir səhiyyəsinə rəhbərlik etdi, çox böyük təşkilatçı kimi tanındı. Sonra onu mən əvəz etdim. Özü də Mingəçevirə gəldikdən 5 il sonra. Bundan əvvəl 1961-ci ilin iyun ayından 1965-ci ilədək burada poliklinikanın baş həkimi kimi fəaliyyət göstərdim. Sonradan 7 il səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışdım. Söz yox ki, mən Mingəçevirə əbədi bağlıyam, həyatımın ən xoş məqamlarnı burada yaşamışam, bir həkim kimi tanınmışam deyə Yüsif Mustafayev ürək sözlərini çatdırır,—indi də kənarda deyiləm.

«Səhiyyə əlaçısı» döş nişanına, «Şərəf nişanı» ordeninə layiq görülmüşəm. Övladlarımın hamısı ali təhsillidir, ev-eşik sahibidirlər. Həyat yoldaşım Mayisə xanım da həkimdir. Baba və nənənin ən xoşbəxt günləri isə təbii ki, nəvələri ilə keçirdiyi günlərdir. Bizim də 6 nəvəmiz var və Tanrı hər kəsə layiqli övlad, ata ocağının dəyanətli keşikçisi qismət etsin. Bu sarıdan da bəxtim gətirib.

**Çələbi DÖNMƏZ.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**8 yanvar:** Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı Leyla Bədirbəyli (1920—1999) dünyaya gəlib. Filarmoniyanın mahnı və rəqs ansamblında solist olub. Dram Teatrında işləmiş, klassik ədəbiyyatın nümunələrindən bir sıra obrazlar yaratmışdır.

**10 yanvar:** rus yazıçısı, akademik Aleksey Tolstoy (1883—1945) anadan olub. «Əzablı yollarla», «18-ci il», «Tutqun şəhər» trilogiyası məşhurdur, bir neçə dram əsəri və romanlar yazmışdır.

**12 yanvar: "Leyli və Məcnun"** operasının ilk tamaşası 1908-ci ildə olmuşdur.

Qazaxıstanın dövlət xadimi, 3 dəfə Sosialist Əməyi Qəhrəmanı, akademik **Dinmühəmməd Kunayev** (1912—1993) anadan olmuşdur. Qazaxıstan EA-nın prezidenti, Qazaxıstanda Nazirlər Sovetinin sədri, Qazaxıstan KP MK-nın birinci katibi işləmişdir.

Görkəmli Amerika yazıçısı Cek London (əsil soyadı Qrifit 1876—1916) anadan olub. Kaliforniya universitetini maddi çətinlik üzündən yarımçıq qoymuşdur. "Dəmir daban", "Martin İden" əsərləri məşhurdur.

**13 yanvar:** Azərbaycanın xalq artisti **Qriqori Sorin** (1894—1973) anadan olmuşdur. 1946—70-ci illərdə (fasilələrlə) S. Vurğun adına Azərbaycan Rus Dram Teatrında işləmişdir.

**14 yanvar:** Akademik, fizika-riyaziyyat elmləri doktoru, əməkdar elm xadimi **Zahid Xəlilov** (1911—1974) Gürcüstanda anadan olmuşdur. Bir sıra vəzifələrdə olmuş, Azərbaycan EA-nın prezidenti işləmişdir.

Xalq artisti, əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, teatr rejissoru **Tofiq Kazımov** (1923—1980) anadan olmuşdur. Akademik Dram Teatrında bir sıra Avropa dramaturqlarının, M. F. Axundovun, İ. Əfəndiyevin əsərlərinə quruluş vermişdir. Pedaqoji fəaliyyət göstərmişdir.

**15 yanvar:** 1917-ci ildə xeyriyyəçi **Hacı Zeynalabdin Tağıyevin** vəsaiti ilə Bakıya Şollar su kəməri çəkilib.

**16 yanvar:** Gibernetika və hesablama texnikası sahəsində görkəmli alim, texnika elmləri doktoru, professor **Böyükağa Əzimov** (1924—2001) anadan olub. Nazirlər Sovetində şöbə müdiri, ADU-da laboratoriya rəhbəri, "Texniki tərəqqi uğrunda" jurnalının baş redaktoru işləyib.

Azərbaycan mühacir ədəbiyyatının tanınmış nümayəndəsi **Ümmülbanu** (1905—1994) Bakıda dünyaya gəlmiş, sovetlər hakimiyyəti qurulanda mühacirət etmiş, Fransada yaşayıb yaratmışdır.

**17 yanvar:** Şairə **Mədinə Gülgün** (1926—1992) Bakıda dünyaya gəlmiş, sonralar ailəsi ilə birlikdə Ərdəbilə köçmüşdür. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatında fəal iştirak edib. Şeirlər və poemalardan ibarət kitabları nəşr olunub.

**18 yanvar:** Xalq artisti, kinorejissor, Dövlət mükafatı laureatı Eldar Quliyev 1941-ci ildə anadan olmuşdur. Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi işləyib. "Bir cənub şəhərində", "Babək", "Nizami", "Sevinc buxtası" bədii və "Səməd Vurğun" sənədli filmlərini çəkib.


## Mirzəbəyli kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Mirzəbəyli kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **yanvar ayının 31-dək** qəbul olunur.


# Elanlar

Qəbələ Rayon Aqrar İslahat Kosmissiyası tərəfindən 15 may 1998-ci il tarixli 09 saylı qərarla Xırxatala kənd sakini **İsgəndərov Araz Məcid oğlunun** adına verilmiş JN-240A nömrəli (kodu 40605038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonu Böyük Pirəlli kənd məscidi dini icmasının (280 №-li şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır)təsisçilərinin 15 dekabr 2014-cü il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FNH Şimal-qərb RM-nin kollektivi mərkəzin əməkdaşı **Rəvan Qarayevə,** nənəsi

**SAYAD XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası FNH Şimal-qərb RM-nin kollektivi, mərkəzin əməkdaşı **Anar Xəlilova,** yaxın qohumu

**SƏHRAB XƏLİLOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov mədəniyyət işçisi, yaxın dostu

**FÜZULİ XƏLİL OĞLU SƏRKƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları

**BƏHRAM HƏMİDOVUN**

vaxtsız vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2150.

Oxucu məktubları geri qaytarılmır.